*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 441-445*

https://doi.org/10.62837/2026.7.441

**ŞAKİR CƏFƏROV,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**BDU- nun doktorantı**
**shakird.jafarov50@gmail.com**

# MİR CƏLALIN ARXİVİNDƏN TAPILAN HEKAYƏLƏRİ

**XÜLASƏ**

Apardığımız tədqiqat işindən məlum olur ki, Mir Cəlal ilk növbədə hekayəçi olub. Biz bu fikrə Mir Cəlalın tədqiqatçılarının yazdıqları tədqiqat işlərində, eləcə də ədəbiyyatşünas alimlərin yazılarında daha çox rast gəlirik. Tehran Əlişanoğlu**nun** Mir Cəlalın yaradıcılığı haqqında dedıklərindən: "Onun hekayələri öz tipi etabarilə praktik hekayələrdir. Çünki Mir Cəlal sovet dönəmində insanının rastlaşdığı müxtəlif situasiyalardan, hətta oçerk materialından da hekayə düzəldə bilirdi. Nərgiz Paşayeva yazılarında vurğulayır ki, Mir Cəlalın hekayələrində yazıçı, müəllim və alim birləşir. O, müəllim olmaqla yanaşı hekayənin nəzəriyyəsini də, praktikasını da bilirdi.

Mir Cəlalın hekayələrində özündən əvvəlki realizm, lirizm ənənələri və bizim maarifçi ədəbiyyatın didaktikası birləşib. Yazıçının hekayələrində onun müəllim kimi mövqeyini ortaya çıxaran müəyyən didaktik nəticə görünür. O, kitablarındakı silsilə hekayələrinə mövzu baxımından "İnsanlıq fəlsəfəsi", "Həyat hekayələri", "Fəlsəfi hekayələr", "Vətən yaraları"kimi adlar verərək təsnif edib".

**Açar sözlər :** hekayəçi, praktik hekayələrdi, realizm, lirizm, didaktik nəticə, silsilə hekayələr

Azərbaycan nəsrinin görkəmli simalarından olan Mir Cəlal əsl istedad sahibi olmuşdur. O, XX əsr Azərbaycan nəsrinin, Azərbaycan ədəbiyyatının sərlövhəsidir - desək, heç də yanılmarıq. Çünki Mir Cəlal heç zaman özünü insanlardan yüksəkdə tutmamış və həmişə sadə insanlarla bir yerdə olmuşdur. Mir Cəlal yaratdığı söz xəzinəsi ilə öz adını Azərbaycan ədəbiyyatı tarixinə əbədilik yazmışdır. Onun yaradıcılığını araşdırdıqca bədii əsərlərində xalqımızın tarixi, adət-ənənələrinin mükəmməl şəkildə əks olunduğunu görürük. Yazıçı xalqın qəlbinə, ruhuna nüfuz etmiş, dərdinə şərik olmasınını yazdığı əsərlərində təsvir etmişdir. Mir Cəlalın bədii əsərlərinin dili sadə və səmimidir. Ədibin əsərlərinin uğur qazanmasının əsas səbəbi də məhz budur. Eyni zamanda Mir Cəlal məzmunu bəsit olan, insanı və insan hisslərinin obrazını ifadə edə bilməyən əsəri əsər adlandırmırdı. Onun fikrincə, bədii əsər keçmiş yaşanmış həyatı yenidən canlandırıb, oxucunun təsəvvüründə yaşadır və qələm gücünün əhəmiyyətini göstərir. Həm də Mir Cəlalın bədii əsərlərinin dili olduqca təbii, canlı və ritmikdir.

Mir Cəlal özündən əvvəlki və müasirləri olan yaradıcı simaların qələm məhsullarını mütaliə edərək mərhələ-mərhələ püxtələşmiş və sənətin fövqündə özünə layiqli yer qazanmışdır. Dövrün hadisələrini yaradıcı qələmlə oxucusuna təqdim edən yazıçı böyük hekayə ustası, böyük romanlar müəllif olaraq sevilmişdir. Mir Cəlal əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmişdir.Keçdiyi ömür yolunu, yaradıcılığını araşdıqca yazılan hər sətir ustad yazıçının böyük ziyalığını, sənətkarlığını əks etdirdiyini görürük. Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

Yazıçının yaradıcılığından bəllədi ki,

Azərbaycan ədəbiyyatında hekayə janrının inkişafında Mir Cəlal böyük xidmətlər göstərmişdir. İnsanda sağlam duyğular, xoş arzu-ümidlər oyadan, gerçəkliyə baxışa həqiqət işığı, tənqidi ruh və ayıqlıq hissi gətirən, haqsızlığa, nöqsan, eybəcərlik və mənfiliyə qarşı mübarizə keyfiyyəti aşılayan məziyyətlərdəndir. 1930-cu illərdə ədəbiyyata "Mirzə", "Həkim Cinayətov", "Mərkəz adamı", "Kağızlar aləmi", "Təzə toyun nəzakət qaydaları", "Bostan oğrusu", "Kələntərovlar ailəsi", "Anket Anketov" tipli dəyərli hekayələr gətirmiş Mir Cəlal tənqid oxunu hədəfə qarşı cəsarətlə yönəldə bilirmişdir. Özünəməxsus realist qələmlə savadsız mirzələri, başgirləyən müəllimləri, cinayətkar həkimləri, "mərkəz adamı" Əntərzadələri, arvad alıb boşamaqla varlanan Balaxanları, mənəviyyatca pozulub "murdar cənazə"yə çevrilən Səadət xanımları, "nəzakət"pərdəsi altında çirkin simalarını gizlədənləri, bürokrat Anket Anketovları vəziyyət və şərait konkretliyində rüsvay edib, oxucuya tanıdmışdır.

Klassik hekayənin peşəkar yaradıcıları Mirzə Cəlil, Əbdürrəhim bəy, Yusif Vəzir və Mir alim kimi Pənah Xəlilovla birlikdə yazdıqları "Ədəbiyyatşünaslığın əsasları" kitabında onun janr xüsusiyyətlərini mənalandırıb: "Müasir, yeni, fəal realist bir janr olan hekayə quruluşca o qədər də mürəkkəb bir şəkil deyildir. Xarakterik bir hadisə, yığcam bir süjet, ümumiləşdirici bir mətləb, müxtəlif şirin, sadə söyləmə, nəqletmə üsulu hekayə sənətində əsasdır" **( 4. 280 s.).**

Ədəbiyyatşünas alim N.Şəmsizadə yazmışdır: Mir Cəlalın "Anket Anketov", "Təzə toyun nəzakət qaydaları", "iclas qurusu" hekayələri dünya hekayə janrının inciləri sayıla bilər. Həmin hekayələrdə həm də Azərbaycan xalqının gülüş mədəniyyəti öz əksini tapıb" **( 5. səh. 232).**

Bu mülahizədə Mir Cəlalın hekayələrinə xas daha bir cəhət - olduqca səmimi yumor hissi, gülüş mədəniyyətimizin mənalı bədii əksi məsələsi ön plana çəkilir. Mir

Cəlal hekayə yaradıcılığında daim gülüşün estetik imkanlarından bacarıqla istifadə etmişdir. Sovet dövrünün ədəbiyyat üzərində marksist ideologiyanın müəyyən təzyiqlərini nəzərə alaraq, ədib əsasən, yumordan, ironik gülüşdən bəhrələnmişdir.

Mir Cəlalın həm çap olunmuş, həm də kitablarının heç birinə düşməmiş hekayələri məhz belə yumoristik-kinayəli gülüş zəminində yazılıb. Kinayəli gülüş adi gülüş deyil, fəlsəfi gülüşdür. Ümumiyyətlə, gülüş xalq idrakının aydınlığını və dərinliyini ifadə edir. Gülüş mədəniyyəti kamillik mədəniyyətidir. Gülüş elə bir zirvədir ki, hər xalq, hər sənətkar ora yüksələ bilməz. Gülmək üçün səmimiyyət və saflıq lazımdır. Gülüş bəşəriyyətin sübh şəfəqidir. Ciddi şəxsiyyət, ağırtaxtalı kişi, saf və ləyaqətli türk oğlu olan Mir Cəlalın hekayələri və bütün əsərləri belə bir gülüş zəminində yazılıb **(2. 462 s.).**

Hazırda Azərbaycan Respublikası Milli Arxiv idarəsində Mir Cəlalın şəxsi arxivi çox aydın və sistemləşdirilmiş vəziyyətdə saxlanılır. Şəxsi arxivlə tanışlıq zamanı yazıçının ailə üzvləri ilə, dostları ilə məktublarını, romanlarını, hekayələrini əlyazmalar variantında, yazıçının öz xətti ilə olduğu kimi, orijinal vəziyyətdə oxumaq Mir Cəlalsevərlər üçün xüsusi bir hissdir. istər sağlığında, istər ölümündən sonra çap olunan kitabları ilə, Milli Arxiv idarəsində şəxsi arxivində saxlanılan hekayələri ilə tanışlıqdan sonra müqayisə zamanı və ən əsas da ildə çap olunan 5 cildliklə tutuşdurduqdan sonra araşdırma zamanı məlum olur ki, Mir Cəlalın nəşr edilməyən 11 hekayəsi var. Bizə belə gəlir ki, “Yanşaq", “Zirəklik”, “Ölü soyan", “Qayğı”, “Ulduz kəndinin şəfəqləri", “Tərpənir", “Söy-lənməyən nitq", “Sorağın gəlsin”, “Oturaqlar”, “Xallı muncuq”, "Sünbül” hekayələri heç vaxt işıq üzü görməyib. Mir Cəlalın tələbəsi və araşdırıcısı, professor Təhsin Mütəllimov da bu hekayələrin çap olunmadığını qeyd edib.

"Sorağın gəlsin” Mir Cəlalın cəbhə hekayələrindəndir. Gözəl Şirvan elində böyük sevgi, səy və əsl müəllim kimi dərs deyən Hacıbaba müəllim bir yay məktəbi qoyub cəbhəyə getməli olur. Onu sevgilisi əvəz edir, Hacıbaba müəllimə layiq olmağa, onun şagirdlərini sevməyə başlayır. Hacıbaba Məmmədov da israfil Məmmədov kimi qəhrəmanlıq göstərir, zabit rütbəsinə yüksəlir.

Qeyd etməliyik ki, yazıçının çap olunmamış hekayələri sadəlik işığında yazılıb. Bu hekayələrdən birini - "Tərpənir" hekayəsini sizin nəzərinizə çatdırmaq istəyirəm. "Tərpənir" hekayəsində hekayə bir nəfərin dilindən danışılır: Yazıçının çap olunmamış 11 hekayəsinin bəzilərini nəzərdən keçirəndə məlum olur ki, "Zirəklik" ədibin miniatür hekayələrindəndir. Onu novella da adlandırmaq olar. İncə yumorla yazılmış bu novella Mir Cəlala doğma bir mövzudadır. Novellada bir ədəbiyyat müəlliminin - Mehralı müəllimin "Zirəkliyindən" bəhs olunur.

## İstifadə olunmuş ədəbiyyat

1. Mir Cəlal . Seçilmiş əsərləri, I kitab. Bakı, Çaşıoğlu, 2008, 438 s.
2. Mir Cəlal . Seçilmiş əsərləri, II kitab. Bakı, Çaşıoğlu, 2008, 462 s.

3. Mir Cəlal . Seçilmiş əsərləri, III kitab. Bakı, Çaşıoğlu, 2008, 450 s.
4. Mir Cəlal və Pənah Xəlilov . Ədəbiyyatşünaslığın əsasları. Bakı, Maarif, 1972, 280 s.
5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012**,** səh. 232
6. Əlimirzəyev X. Mənəvi borc. Bakı, "Nurlan", 2006, 192 s.
7. İsmayılov Y. Mir Cəlal: Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 381 s.

## REZЮME

**ШАКИР ДЖАФАРОВ**

## ИСТОРИИ, НАЙДЕННЫЕ В АРХИВАХ МИР ДЖАЛАЛА

Из наших исследований становится ясно, что Мир Джалал был прежде всего рассказчиком. Мы часто встречаем эту идею в научных работах исследователей творчества Мир Джалала, а также в трудах литературоведов. Вот что сказал Тегеран Алишаноглу о творчестве Мир Джалала: «Его рассказы - это практические истории по своей сути. Мир Джалал умел создавать истории из различных ситуаций, с которыми сталкивался азербайджанский народ в советский период, даже из эссеистического материала».

Наргиз Пашаева в своих работах подчеркивает, что в рассказах Мир Джалала объединены писатель, учитель и ученый. Помимо того, что он был учителем, он знал как теорию, так и практику повествования. В рассказах Мир Джалала объединены традиции реализма, лиризма и дидактики нашей просвещенной литературы. В рассказах писателя виден определенный дидактический результат, раскрывающий его позицию как учителя. Он классифицировал сборники рассказов в своих книгах по тематике, дав им такие названия, как «Философия человечества», «Жизненные истории», «Философские рассказы» и «Раны родины».

**Ключевые слова:** рассказчик, практические истории, реализм, лиризм, дидактический результат, серия рассказов

## SUMMARY

**SHAKIR JAFAROV**

## STORIES FOUND IN THE ARCHIVES OF MIR JALAL

From our research work, it becomes clear that Mir Jalal was primarily a storyteller. We often come across this idea in the research works written by Mir Jalal's researchers, as well as in the writings of literary scholars. From what Tehran Alishanoglu said about Mir Jalal's work: His stories are practical stories by their type. Because Mir Jalal could make stories from various situations encountered by Azerbaijani people during the Soviet period, even from essay material.

Nargiz Pashayeva emphasizes in her writings that in Mir Jalal's stories, a writer, teacher, and scientist are united. In addition to being a teacher, he knew both the theory and practice of the story. In Mir Jalal's stories, the traditions of realism, lyricism, and the didactics of our enlightened literature are united. A certain didactic result is visible in the writer's stories, revealing his position as a teacher. He classified the series of stories in his books by subject matter, giving them titles such as "Philosophy of Humanity," "Life Stories," "Philosophical Stories," and "Wounds of the Homeland."

**Keywords:** storyteller, practical stories, realism, lyricism, didactic result, serial story

**Rəyçi: Qərənfil Dünyamin qızı (Quliyeva), filologiya elmlər doktoru, dosent, Əməkdar jurnalist**